Xalq qəzeti 2020.- 19 may.- S.6.

# “Bütün köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar”



**Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Ağcabədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsinin açılışında iştirak edərkən – məcburi köçkün Cənnət Əliyevin evində demişdi. Dövlət başçımız xatırlatmışdı ki, beynəlxalq təşkilatlardakı nüfuzumuz, ölkə daxilindəki təşəbbüslərimiz, ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafı və güclü hərbi potensialın yaradılması deməyə əsas verir ki, biz bu işğala son qoyacağıq.**

Prezident qətiyyətlə demişdi ki, bu, qaçılmaz bir həqiqətdir: “Ermənistan və Ermənistanın indiki rəhbərliyi, əminəm ki, bunu dərk edir. Bunun yeganə yolu vardır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, bütün köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar. Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıtmalıdırlar. Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilməlidir. Beynəlxalq hüquq normaları bunu tələb edir. Haqq-ədalət bunu tələb edir və Azərbaycan xalqı bunu tələb edir”.

Hələlik isə dünyada ikili standartlar davam edir və öz havadarlarına güvənən Ermənistan münaqişənin ədalətli həllindən yayına bilir. Torpaqlarımızın işğaldan azad edilməsinə qədər isə Azərbaycan dövləti qaçqın və məcburi köçkünlərimizin bütün sosial-məişət problemlərini həll etməklə onların kədər və nisgilini azaldır. 28 il əvvəl – 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Laçın rayonunun 77 min nəfərə yaxın sakini də hələ ki, məcburi köçkün taleyi yaşamaqdadır. Rayon sakinlərindən 267 nəfər öldürülüb, 66 nəfər girov götürülüb, Laçına 7,1 milyard ABŞ dollarından çox məbləğdə ziyan dəyib.

Qeyd olunur ki, rayonun işğalı nəticəsində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri, 13 min 745 yaşayış evi talan və məhv edilib, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə erməni vandalizminə məruz qalıb. İctimai və şəxsi təsərrüfatlardakı 25 min baş qara mal və 200 min başdan çox davar, minlərlə arı ailəsi, əhalinin bütün varidatı qarət edilib.




Bu əzəli və qədim Azərbaycan -- türk torpağı zəngin təbii sərvətlərə və əsrarəngiz gözəlliyə malikdir. Rayonun şərqində Qarabağ silsiləsinin cənub-qərb yamacları, şimalında Mıxtökən silsiləsi uzanır, cənub-qərb hissəsini isə Qarabağ yaylası tutur. Ən yüksək dağ zirvəsi Qızılboğazın hündürlüyü 3594 metrdir. Bol su ehtiyatları olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək Həkəri çayını (uzunluğu 113 kilometr) yaradır ki, bu çay da Araza qovuşur. Ərazisində Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar, zəngin meşələr, yaylaqlar var.

Azərbaycan dövlətinin 1961-ci ildə rayon ərazisində nadir təbiət komplekslərini qorumaq üçün yaratdığı Laçın Dövlət Təbiət Yasaqlığı 20 min hektar, 1987-ci ildə yaradılan Qaragöl Dövlət Təbiət Qoruğu isə 240 hektar ərazini əhatə edirdi. Qoruqda 68 növdən və 27 fəsilədən ibarət bitki örtüyü var idi.

Mütəxəssislər yazırlar ki, Laçın ərazisindəki 3 civə, əhəngdaşı, Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf, kərpic-kirəmid istehsalına yararlı Novruzlu gil, həmçinin Quşçu pemza, Yuxarı Həkəriçay qum-çınqıl qarışığı, əqiq, 2 əlvan bəzək daşı, 3 vulkan külü və Minkənd mineral su yataqları 27 ildir ki, ermənilər tərəfindən talan edilir.

Bu diyar tarixi- mədəni abidələrlə də olduqca zəngindir. Məsələn, IX əsrə aid Ağoğlan məbədi , XI əsrə aid Dəmrovlu Pir Məbədi, Cicimli kəndində XII əsrə aid Məlik Əjdər türbəsi, XVII əsrə aid Kar Künbəz türbəsi, 1761-ci ildə Soltanlar kəndində tikilmiş Həmzə Soltan sarayı, Quşçu kəndində Pir, Uşaq qalası, Şəlvə kəndində məbəd, Mirik kəndi ərazisində qala, Qaranlıq kaha, Bayqara mağaraları, Zeyvə kəndində Soltanbaba türbəsi, Güləbird kəndində Sultanbud məbədi, Minkənd kəndində Alban kilsəsi, X-XIX əsrlərə aid ikitağlı və birtağlı körpülər, Seyidlər kəndində birtağlı körpü, Pircahan körpüsü, orta əsrlərə aid sənduqə, qoç və at abidələri, dəmir və tunc dövrünə aid kurqanlar, qəbiristanlıqlar və onlarca digər məbədlər erməni vəhşiliyinin qurbanına çevrilib. Rayondakı tarixi, mədəni və dini abidələrin bir çoxu dağıdılıb. Laçının 74 min nəfərə yaxın sakini isə artıq 28 ildir ki, respublikanın 59 şəhər və rayonunda məcburi köçkün həyatı yaşayır.

Təəssüf ki, erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması, ölkəmizin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı barədə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, eləcə də Qarabağ müharibəsi ilə bağlı Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatların qəbul etdikləri qərarlar hələ də Ermənistan Respublikası tərəfindən yerinə yetirilmir.

Bir daha xatırladaq ki, erməni işğalından, eləcə də, qəsbkar dövlətin törətdiyi terror və təxribatlardan zərər çəkmiş soydaşlarımızın hamısı dövlətin qayğısı ilə əhatə olunub. Fəxrlə deyə bilərik ki, indiyədək Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində məcburi köçkünlərin mənzil-məişət və sosial problemlərinin həlli istiqamətində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə dövlətin həyata keçirdiyi siyasətə Heydər Əliyev Fondu da böyük töhfələr verib. Bu günədək 62494 məcburi köçkün ailəsinin, ümumilikdə, bu qəbildən olan 315 min soydaşımızın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. 2020-ci ildə də bu işlərin davam etdirilməsi nəzərdə tutulur. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə reallaşdırılan tədbirlər ardıcıl xarakter alıb.

***Hazırladı:***
***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***